**Azər Cəfərov**

# MİSSİYA

QANUN NƏŞRİYYATI

**Azər Cəfərov. Missiya**
Bakı, Qanun Nəşriyyatı, 2026, 208 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 18.06.2026

Mətn dizaynı: Vüqar Nağıyev
Qapaq dizaynı: Rövşən Abbas

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

AB 022051 / İN 0782

© Qanun Nəşriyyatı, 2026
© Azər Cəfərov, 2026

Kitab müəllif tərəfindən redaktə və
korrektə edilərək nəşriyyata təqdim olunub.
Redaktə, korrektə və məzmun məsələlərinə
görə müəllif məsuliyyət daşıyır.

*Göylər ulduzların yapışdığı alçaq tavan olanda Kainatın dar olduğunu düşündüm, havanın azlığından boğulurdum. İndi səma daha uca və genişdir. Daha sərbəst nəfəs almağa başlayıram və düşünürəm ki, indi Kainat əvvəlkindən müqayisəsiz dərəcədə böyükdür*

***Bernard Fontenelle (1657-1757)***

# M Ü N D Ə R İ C A T

*Müəllifdən* ............................................................. 7
İlahi Missiya.............................................................11
Kosmik Şəhərlər Federasiyası və
"Nuhun Kosmik Gəmisi" ........................................... 14
Həyat Qurşağının sərvəti........................................... 16
"Üç bacı" layihəsi, bakteriyalar və planktonlar ......... 19
Ayman baba................................................................ 23
Antropon planeti ........................................................ 27
İrfan............................................................................ 33
Eşq sonatası................................................................ 38
Oxlu kenquru, vegetarian bədheybət ........................ 42
Ucan daş..................................................................... 46
Böyük bacı ................................................................. 48
Ortancıl bacı............................................................... 52
Sivilizasiyaların dialoqu............................................. 56
Şüur qardaşlarımız .................................................... 60
Kiçik bacı və Böyük bacı ilə tanışlıq ........................ 64
Dəniz adamları .......................................................... 74
Tana, yoxsa Maqa?.................................................... 77
Böyük bacının "sancı"sı............................................. 82
Tananın peyğəmbəri Tor ........................................... 88

Bacılar .............................................................. 94
Ortancıl bacının sevgisi............................................... 96
Ayman baba ilə söhbət ............................................ 103
Dəniz qızı ................................................................ 107
Ortancıl bacı və Tor...................................................111
Torun heyrəti ........................................................... 126
Tananın qüdrətinə eşq olsun! .................................... 135
Antroponsayağı Neolit inqilabı................................. 140
Hər günü 1000 ilə bərabər Antropon xalqı .............. 144
Hamımız şüur qardaşlarıyıq ..................................... 147
Böyük bacının "edam"ı............................................ 152
Tor və şimallılar ....................................................... 157
Ortancıl bacı, bağışla məni ...................................... 163
Bacılar bir yerdə....................................................... 168
Savaş, yoxsa Sülh..................................................... 174
Məhkəmə.................................................................. 182
Kiçik bacı və Alu ..................................................... 186
Torun şübhələri ........................................................ 188
Alunun qəzəbi .......................................................... 194
Alu, Kiçik bacı və androidlər................................... 199
Kiçik bacının təklifi ................................................ 201

# MÜƏLLİFDƏN

Əziz oxucum! Amerikalı alim F.Dreykin hesablamalarına görə bizim Qalaktikada yüksək inkişaf etmiş 20 min sivilizasiya var. Sual verirəm: onlar bu qədər çoxdursa, niyə bizimlə əlaqə yaratmırlar? görünür, yaşı milyon illərlə ölçülən "qocaman" sivilizasiyalar, 6-7 min yaşlı "körpə" sivilizasiya ilə münasibət qurmaq istəmirlər.

Əksər fantastika yazarları öz əsərlərində yadplanetliləri təcavüzkar varlıqlar kimi təsvir edirlər. Milyon il tərəqqi yolu keçmiş, ulduzları "yandırıb-söndürmək" qüdrətinə çatmış varlıqlar qəddar ola bilərmi? Əminəm ki, sevgi və Mərhəmət Kainatın universal Qanunudur və Kainatın hər yerində "*Allahın bənzərində yaradılmış*" Ali şüurun daşıyıcıları bu keyfiyyətlərə sahibdirlər. Onlar öz planetlərində qardaşlıq və birlik yaratmadan, Elm və Dinin vəhdətinə nail olmadan kosmik sivilizasiyaya çevrilə bilərdilərmi?

*Ey ruh oğlu! Mənim ilk nəsihətim budur: pak, gözəl və nurlu bir ürəyə malik ol ki, əzəli, əbədi, daimi və qədim bir səltənətə sahib olasan* (Bəhaullah).

K.Sialkovskiy deyir ki, körpə beşiyini tərk etdiyi kimi, bəşəriyyət də Yerdən kənara çıxıb Kainata ayaq basmalıdır. Akademik O.Qazenko yazır: *Yerdə təbii*

*sərvətlər tükənəcək. Fəlakət başımızın üstünü kəsdirməmiş, Qalaktikamızın həyat üçün əlverişli yerlərinə səpələnməliyik.*

Görən nə vaxtsa biz də qüdrətli kosmik sivilizasiyaya çevrilə bilərikmi? Dinlərə, millətlərə, irqlərə parçalanmış planetimizin sakinləri Yeri ümumi Vətənə çevirib, Vahid Dünya sivilizasiyasında birləşməyincə buna şansımız yoxdur.

Müharibələrsiz və sərhədsiz Vahid Dünya çoxlarına xəyalpərəstin arzusu kimi görünə bilər. Bəşəriyyətin tarixində parçalanmanın törətdiyi bəlalar hədsiz çox olub. Son 6-7 min ildə müharibələrdə milyardlarla insan həlak olub, mədəniyyətlər məhv edilib, şəhərlər dağıdılıb. Müharibələrə çəkilən xərclər inkişafa sərf olunsaydı dünya indikindən qat-qat zəngin və gözəl olardı. Burada Məmməd Arazın möhtəşəm misraları yada düşür:

*Əridib silahları*
*Biz martin sobasında,*
*Körpü yarada bilərik*
*Yerlə Mars arasında, - Müharibə olmasa!*
*Yer minillik barını*
*Bircə gündə yetirər,*
*Alim ayı, ulduzu*
*Dartıb yerə gətirər, - Müharibə olmasa!*

Reallıq isə başqadır: dövlətlər "suveren maraqlarını" qorumaqdan ötrü silahlanmaya külli-miqdarda pul

xərcləyirlər, planetimizin resursları talanmaqda və təbiəti məhv edilməkdədir; dini, milli, irqi təəssübkeşliklər hələ də insanların düşüncələrinə hakim kəsilib.

Ömrünün 40 ilini həbsxana və sürgündə keçirmiş və Əkka Məhbusu kimi tanınan Bəhaullah 162 il əvvəl dünyanın hökmdarlarına bu sözlərlə müraciət etdi: *Dünya bir Vətən və bütün insanlar onun vətəndaşlarıdır, bütün insanlar daim inkişafda olan Sivilizasiyanı irəlilətmək üçün yaradılmışlar. Bəşəriyyətin rifahı, sülhü və təhlükəsizliyi onun birliyi bərqərar olmadıqca əldə edilə bilməz.* O, deyirdi ki, Bəşəriyyət parçalanma mərhələsini aşıb, birləşmək və sivilizasiyanı tərəqqi yolu ilə aparmaq imkanındadır. Əbədi Sülhün bərqərar olması və millətlərin Vahid Dünya sivilizasiyasında birləşməsi Bəşəriyyətin yeganə xilas yoludur.

Oxuculara təqdim etdiyim povest uzaq gələcəyin sakini Səma adlı qızın gündəliyindən ibarətdir. Səma və dostları bəşəriyyətin Qızıl Əsrində yaşayırlar: bu o dövrdür ki, artıq dövlətlər, millətlər, irqlər tarixə qovuşub, tək Yer kürəsi deyil, bütün Kainat Yer sakinlərinin Ümumi Vətəninə çevrilib. Bu kosmik sivilizasiyada yaşayan insanlar kamilliyin ən yüksək zirvəsindədirlər. Əsərdə Allah-insan, insan-insan, insan-təbiət münasibətlərinin ideal modeli təqdim olunur. İnsanların biri-birinə, başqa planetin sakinlərinə, hətta canlı varlıqlara münasibəti Sevgi, Mərhəmət və Şəfqət prinsipinə əsaslanır.

Səma Məhəbbət Günəşi adlı ulduzun ətrafında dövrə vuran kosmik şəhərin sakinidir. O, ixtisasca astrobioloqdur.

Səma və dostları Qardaşlıq və Sevgi erasının yüksək intelektual və mənəvi keyfiyyətlərə malik sakinləri olsalar da, həyəcan, qorxu, ümidsizlik və yumor hissi onlara yad deyildir. Əsərin süjet xəttini Səmagilin Böyük Magellan dumanlığında kəşf etdikləri Antropon planetində şüur qardaşları ilə münasibətlər qurarkən yaşadıqları kədər və sevinc dolu hadisələr təşkil edir.

Əsər Bəşəriyyətin gələcəyini düşünən, planetimizi Bir Ümumi Vətən kimi görmək istəyən və bu Müqəddəs Missiyaya öz töhvəsini vermək istəyən gənclər üçün yazılıb.